**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN, SİİRT, DIYARBAKIR ŞƏHƏRLƏRİNIN XI-XII ƏSR DINI MEMARLIQ ABIDƏLƏRİNİN QURULUŞ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 6401.01 – Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası |
| Elm sahəsi: | Memarlıq |
| İddiaçı: | **Keskin Muhammed Abdulla oğlu** |

Fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: memarlıq doktoru, professor
**Nərgiz Cavad qızı Abdullayeva**

Rəsmi opponentlər: memarlıq doktoru, dosent
**Abdrasilova Gülnara Seyitaxmetovna**

memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Samirə Mirəhməd qızı Abdullayeva**

memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Yeganə Çərkəz qızı Ağamalıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.29 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: memarlıq doktoru, professor
**Güləöhrə Hüseyn qızı Məmmədova**

Dissertasiya şurasının katibi: memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Məlahət Tapdıq qızı Eynullayeva**

Elmi seminarın sədri: memarlıq doktoru, professor
**Səbinə Xalid qızı Hacıyeva**

# TƏDQIQATIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İki qardaş ölkənin – Azərbaycan və Türkiyənin memarlıq abidələri öz yüksək bədii xüsusiyyətləri, klassik kompozisiyaları, dərin məzmunlu obrazlıqları ilə dünya memarlığı miqyasında seçilirlər. Hər iki ölkənin memarlıq abidələrinin oxşar və fərqli üslub xüsusiyyətləri, onların səthlərinin müxtəlif quruluşlu bəzək elementləri, epiqrafik yazıları və digər memarlıq tərtibatları ilə zəngin olmaları da xüsusi önəm kəsb edir.

Hazırki dövrə qədər gəlib çatmış memarlıq tikililəri, əsasən də memarlıq abidələri xalqın bədii fəlsəfi təfəkküründə, ictimai həyatında və ən qədim mədəniyyətlərin qorunub saxlanılmasında həlledici rol oynamışdır. Dissertasiya işində XI-XII əsrlərdə Azərbaycan və Türkiyə dini memarlıq tikililərində: məscid, minarə, türbə və mədrəsələrin konstruktiv, həm də dekorativ qurulmasına və onların müxtəlif səthləri tərtibatının elmi araşdırılmasına geniş yer verilir. Qeyd edilir ki, hər vaxt naxışların, cizgilərin ritmi, gözəl quruluşu və harmoniyası onları yaradan sənətkarların bacarığı ilə bağlı olmuşdur. Bütün bunları isə əyani olaraq hər iki ölkə dini memarlıq nümunələri ilə sübut etmək mümkündür.

Araşdırılan Azərbaycan tərəfdən – Naxçıvan, Türkiyə tərəfdən isə - Siirt-Diyarbəkir şəhərlərinin XI-XII əsr dini memarlıq abidələrinin quruluş xüsusiyyətləri (Səlcuqlu dövrü) və memarlıq tikililəri tədqiqatçıları üçün böyük maraq kəsb edir. Qeyd etmək yerinə düşər ki, elmi-tədqiqat işində Azərbaycan və Türk memarlığının oxşar və fərqli cəhətlərinin araşdırılması, onların dekor tərtibat xüsusiyyətlərini əhatəli olaraq tədqiq etmək aktual məsələlərdəndir. Təqdim olunan elmi tədqiqat işi də özünəməxsusluğu ilə seçilir. Belə ki, araşdırmaya hər iki ölkənin dini memarlıq tikililəri, onların dekor tərtibat sahələri də cəlb olunur. Bütün sənət sahələrində önəmli yer tutan, sənətkarları daima düşündürən təfəkkür və təxəyyül, müşahidə və müqayisə, analiz və sintez vəhdəti dissertasiyanın ana xəttini təşkil edir. Təbii ki, iki ölkənin o qədər dəyərli memarlıq əsərləri və özünə məxsus memarlıq tikili xüsusiyyətləri vardır ki, onları bir dissertasiyada

əhatə etmək mümkün deyildir. Qarşıya qoyulan problemin həlli bu sahədə gələcəkdə işləniləcək elmi işlərə sanki bir təkan vermiş olur. Azərbaycan və Türkiyənin Səlcuqlu dövrü dini memarlığı mövzusuna müraciət etməyimiz də elə bu elmi maraq üzərində qurulmuşdur.

Hər iki ölkənin – Azərbaycan və Türkiyənin zəngin memarlıq irsinin yaradıcılıq sirlərinin, o cümlədən memarlıqda bəzək tərtibatının formalaşmasına təsir edən naxışlarının öyrənilməsi zəruridir və keçmiş ənənələrini müasir memarlıq təcrübəsinə tətbiq edilməsi xalqın mədəni azadlığının qorunub saxlanması problemlərinə cavab verir. Azərbaycan və Türkiyənin memarlıq irsinin öyrənilməsi, daha əhatəli analiz və sintez edilməsi bu günün və eləcə də gələcəyin aktual mövzusudur.

Tədqiqat işinin aparılmasında, memarlıq sənəti ilə bağlı problemlərə, eləcə də bədii naxış yaradıcılığı ilə əlaqəli çoxsaylı elmi əsərlərə istinad edilmişdir. Memarlığın inkişafı, onların kompozisiyası, struktu və xüsusiyyətləri  ilə bağlı məsələlər hər vaxt tədqiqat obyekti olunmuşdur. Təbii ki, bir qayda olaraq bir-birinin əksinə olan fərziyyələr irəli sürülmüş, lakin bu sahənin bir çox problemi də toxunulmamış qalmışdır. Faktiki olaraq bu günə qədər Azərbaycan və Türkiyə memarlıq abidələrinin qarşılıqlı təhlili, onların üzərində olan kitabələrin, naxışların qurulma prinsipləri qismən araşdırılmış və az öyrənilmişdir. Daha dəqiq desək, Siirt, Diyarbəkir və Naxçıvan memarlığının qarşılıqlı üslub xüsusiyyətləri, oxşar və fərqli cəhətləri tam olaraq tədqiq olunmamışdır. Tədqiqat işi, daha əhatəli şəkildə yanaşma olduğundan, iki qardaş ölkənin dini memarlıq tikililərinin qarşılıqlı araşdırılmasına həsr olunmuşdur.

Azərbaycan və Türkiyənin oxşar memarlıq abidələrinin araşdırılmasında hər iki ölkə alimlərinin çoxsaylı tədqiqat işlərinə istinad edilmiş, hər iki ölkənin memarlıq sənətinin tarixinə, onların bədii xüsusiyyət və üsullarına, bəzək sistemləri və dekor tərtibat qaydalarından yararlanılmışdır Elə bu baxımdan da həm Türkiyə, həm də Azərbaycanın uzun illərdən bəri memarlıq sahəsində sanballı tədqiqat işi aparmış və elmi şərhini vermiş bir neçə tədqiqatçı alimlərinin siyahısını qeyd etmək vacibdir. Tədqiqat

işində Azərbaycanlı memar tədqiqatçılardan: M.Useynov, Ə.Salamzadə, L.Bretanitski, D.Axundov, K.Məmmədzadə, C.Qiyasi, G.Məmmədova, N.Abdullayeva, F.Miralayev, N.Rzayev, R.Salayeva, R.Əmənzadə, G.Qənbərova, Q.Əliyev, S.Dünyamaliyeva, N.Yusifova və b., türkiyəli memar tədqiqatçılardan isə S.Doğan, M.Ərsoy, E.Güngör, M.Xəlil, O.Aslanapa, S.Aydın, Ş.Çakmak, M.Önder Çakay, D.Tuna, E.H.Yazar, T.Onuk, Y.Özbək, Orta əsrlərə aid tədqiqatçılardan Əl Fərabi, İbn Sina, Əl Xarəzmi Məhəmməd, Bəhmənyar, Əbülhəsən ibn Mərzəban və başqalarının mənbələrinə istinad edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi Azərbaycan tərəfdən Naxçıvan, Türkiyə tərəfdən isə Siirt və Diyarbəkir ərazisində XI-XII əsr Səlcuqlu dövrünü əhatə edən dini memarlıq tikililəri seçilmiş və günümüzə qədər öz bütövlüyünü qismən də olsa qoruyub saxlaya bilən dini memarlıq abidələri, onların memarlıq quruluşları və bədii xüsusiyyətləri araşdırılmışdır. Əldə olunan nəticələr nəinki dini memarlıq tikililərinə, eləcə də digər tikililərin əhatəli olaraq araşdırılma qaydalarına istinad edildiyindən, həmin qanunauyğunluq yüksək dəyər kəsb etdiyindən həm də tədrisdə istifadəsi təcrübi olaraq göstərilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində əsas məqsəd, Səlcuqlu dövründə Naxçıvan, Siirt, Diyarbəkir bölgələrində XI-XII əsrə aid olan dini memarlıq abidələrinin quruluş xüsusiyyətlərini, onların müxtəlif səthlərindəki bəzək kompozisiyalarını, dekor elementlərini və bu elementlərdən yaranan yeni bədii tərtibat nümunələrinə istinadən əhatəli elmi tədqiqat işi aparmaqdır.

Eyni zamanda tədqiqatın məqsədi araşdırmalar zamanı, müvafiq paraqraflarda Naxçıvan, Siirt, Diyarbəkir bölgələrindəki dini memarlıq tikililərin plan, fasad, inşaat xüsusiyyətlərinin də xüsusi əhəmiyyət kəsb etdiyini dəqiq dini abidələr üzərində göstərməkdir. Belə ki, qoyulan məqsədə çatmaq üçün Naxçıvandakı Səlcuqlu imperiya dövrü dini memarlıq tikililərinin, həmçinin bu dövrə aid Siirt və Diyarbəkirdə olan memarlıq tikililərinin araşdırılması və bu əsərlərin memarlıq baxımından üslub xüsusiyyətlərinin müqayisə edilməsi aşağıdakı ardıcıllıqla yerinə

yetirilmişdir:

- Naxçıvan, Siirt və Diyarbəkirdə olan Səlcuqlu dövrünə aid dini memarlıq abidələrindən məscid, türbə və mədrəsələrin təsnifatı verilir;

- araşdırılan dini memarlıq tikililərinin mövcud dövrə görə durumu, bərpa işlərinin aparılmasından əvvəlki və sonrakı foto şəkillərinin çəkilməsi və üzərində aparılan konservasiya və ya təmir işləri, memarlıq əsərlərin layihələndirmə planları və onların ortaq cəhətlərinin analizi də nəzərdə tutulur. Burada Səlcuqlu dövrü memarlıq əsərlərinin bədii tərtibatı və bədii dəyəri olan müxtəlif bəzək, naxış kompozisiyaların da qurulma metodikası tətbiq edilmiş və bu qaydanın memarlıq dekor tərtibatındakı xüsusi əhəmiyyəti də vurğulanır.

Dissertasiya işində məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr icra edilmişdir: Azərbaycan və Türkiyə memarlıq sənətinin vəhdət şəklində verilməsində, həm də bəzək elementlərinə müraciət etməklə vurğulanır ki, memarlıq tikililərinin kitabələri, memarlıq kompozisiyaları və onların əsas bəzək tərtibatları böyük əhəmiyyət kəsb edir. Orta əsrlərin memarlıq komplekslərinin inşasına və onların bəzək tərtibatına təsir edən müxtəlif vasitələrdən olan elementlərin, istər naxış yaradıcılığında, istərsə də forma və məzmun baxımından izahı göstərilir. Məqsədimiz hər iki ölkənin memarlıq sənətinin xüsusiyyətlərini, bəzək elementlərini araşdırmaq, onların qarşılıqlı təsir aspektlərini aşkar etmək və yaradıcılıq – sənət – elm sahələrində ortaq prinsiplərini aydınlaşdırmaqdır. Tədqiqat işində bu və ya bir çox digər məsələlər öz həllini tapmışdır:

- Naxçıvan, Siirt və Diyarbəkir dini memarlıq abidələri üzərində Səlcuqlu dövründə işlənən memarlıq üsulları və texniki məsələlər, həmçinin ornament və naxış kompozisiyalarına nəzər salmaq və onları araşdırmaq,həmçinin dolğun bəzək tərtibatının əsaslarını öyrənmək və inkişafını izləmək;

- Naxçıvan, Siirt və Diyarbəkir dini memarlıq abidələrinin daşıdıqları funksiya, onların naxış kompozisiyalarının əsas növlərini təyini və həmin naxışların hansı həndəsi qanunauyğunluqlar əsasında qurulmasını araşdırmaq;

- Memarlıq abidələri üzərində həndəsi və nəbati tərtibatla yanaşı, sadə naxış motivlərini, təsvirlərinin araşdırmaq;

- Səlcuqlu dövrü dini memarlıq qurulma qaydalarının ümumi prinsip və qarşılıqlı təsirləri, kompozisiyalarını araşdırmaq.

**Tədqiqat metodları.** Naxçıvan, Siirt və Diyarbəkir ərazisində olan dini memarlıq abidələri haqqında müxtəlif ölkələrdə nəşr edilmiş araşdırma materialları, qrafiki çertyojlar, illüstrasiyalar, ədəbiyyatlar toplanılmışdır. Onlardan müqayisəli təhlil aparmaq məqsədilə istifadə edilmiş, əldə olunan elmi nəticələrə istinadən daha dəqiq, adları qeyd olunan bölgələrin dini memarlıq tikililərinin qurulma prinsipləri, kompozisiya quruluşları, bədii tərtibat xüsusiyyətləri, dekor elementlərinin müxtəlif səthlərdə işlənmə üsulunun təyini verilmişdir.

Tədqiqat işində Azərbaycanın, Türkiyənin müasir və klassik əsərlər yaradan memar alimlər, sənətşünaslar və dizayner-rəssamlarının əsərlərindən və ideyalarından da istifadə edilməklə, onların fikirlərinə istinadən Səlcuqlu imperiya dövrü dini memarlıq tikililərinin daha önəmli quruluş xüsusiyyətləri təqdim edilmişdir. Bu məsələ həm nəzəri, həm təcrübi olaraq əyani nümunələr əsasında aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

-Azərbaycan memarlığı bütün müsəlman memarlığı üçün ümumi, vahid elmi nəzəri sistemə söykənir. Bu birlik tikinti sisteminin müxtəlif sahələrində xüsusi şəkildə üzə çıxdığı kimi, memarlıq bəzəyində səthlərin naxışlarla bəzənməsi şəklində də özünü göstərir;

-Səlcuqlu dövrü Azərbaycan memarlığı istər abidələrin say çoxluğu və tip zənginliyinə, istərsə də üslub yetkinliyinə görə əvvəlki dövr tikinti sənətindən xeyli fərqlənir. Məhz bu dövrdə İslam dininin geniş vüsəti tapması ilə əlaqədar dini təyinatlı tikililərin, xüsusilə məscidlərin özlərinə uyğun quruluşları formalaşmışdır;

-Naxçıvan memarlıq məktəbinə mənsub olan dini tikililər, sadə memarlıq üslubları və dekorativ oyma bəzəklərilə seçilir. Bu xüsusiyyətlər Səlcuqlu dövründə inşa edilmiş Siirt-Diyarbəkir memarlıq üslubunda da özünü qabarıq göstərə bilmişdir;

-Səlcuqlu dövründə çox yerlərdə olduğu kimi, Azərbaycanda da monumental məscid tipləri kvadrat biçimli ibadət salonu, günbəzlə örtülən vahid model əsasında tərtib edilirdi.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işi, əhatə etdiyi problemlərin həllinin Siirt-Diyarbəkir və Naxçıvan Səlcuqlu dövrü memarlıq incilərinin əhatəli araşdırılmasına və əldə olunan nəticələrin memarlıq sənətinin bütün sahələrinə və eləcə də tədrisə tətbiqi baxımından aparılan elmi-tədqiqat işidir.

Dissertasiya işində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Tədqiqat işində memarlıq üsul və qanunauyğunluqlarının həm də memarlıq dekorunun əsası sayılan ornamentlər baxımından təhlili, tədqiqi, araşdırılması nəticəsi də elmi cəhətdən əsaslandırılmışdır;
- Azərbaycan və Türkiyə dekorativ-tətbiqi sənət sahəsindəki bədii tərtibat işlərindəki quruluş xüsusiyyətləri, dini memarlıq komplekslərinin kompozisiya quruluş xüsusiyyətləri ilə qarşılıqlı olaraq oxşar və fərqli cəhətləri təhlil edilmişdir;
- Siirt və Diyarbəkir dini memarlıq abidələrinin elementlərinin kompozisiya tərtibatı müəyyənləşdirilmişdir;
- Səlcuqlu dövrünün Azərbaycan və Türkiyə dini memarlıq tikililərinin müqayisəli təhlili aparılmışdır;
- Səlcuqlu dövrü irsinin davamlı inkişafı araşdırılmış və dəyərli elmi nəticələr əldə olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Azərbaycan və Türkiyənin orta əsrlər dini memarlıq yaradıcılığına qarşılıqlı analiz və sintez yolu ilə vəhdət şəklində bir kompleks halında müqayisəli təhlil yolu seçilmiş və onun ümumi qanunauyğunluqlarının aşkarlanmasına cəhd edilmişdir. Hər iki ölkənin mədəniyyət, incəsənət və təhsilindəki oxşar xüsusiyyətlər, daha dəqiq desək, Səlcuqlu dövrü dini memarlıq tikililəri əsasında aparılmışdır. Tədqiqatın nəticəsində elmi cəhətdən əldə olunan və memarlığın bütün sahələrində xüsusi əhəmiyyətə malik nəzəriyyələrin təcrübə ilə vəhdəti əsaslı qrafiki, eləcədə illüstrativ materiallarla tamamlanmışdır.

Memarlıq sahəsində çalışan mütəxəssislər üçün iki qardaş ölkənin memarlıq incilərinin dissertasiyada təqdim olunan qurulma

üsulları əyani vəsait rolunu oynaya bilər. Həmçinin, bərpaçı memar və sənətşünaslar bu qaydalara əsaslanaraq yeni tikiləcək bəzi memarlıq abidələrini və ya memarlıq komplekslərini daha dolğun və riyazi əsaslara - bədii xüsusiyyətlərə istinadən qura bilərlər. Yaxud bərpaya ehtiyacı olan türk tarixini özündə canlı-canlı əks etdirən, dəqiq bərpaya ehtiyacı olan dini memarlıq əsərlərini tədqiq olduğu kimi, təhrif olunmadan bərpa edə bilərlər. Bunlarla yanaşı tədqiqatın əsas bölmələri ali və orta təhsil məktəblərində "Memarlıq nəzəriyyəsi", "Sənətşünaslıq" və digər uyğun fənlər kimi metodiki olaraq tədris zamanı əsaslı vəsait kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları bir sıra elmi konfrans və simpoziumlarda şərh edilmiş, Naxçıvan Dövlət Universitetinin və Azərbaycan-Türkiyə elmi xəbərlər və elmi jurnallarında məqalə kimi nəşr edilmişdir. Hazırkı dövrə qədər, Səlcuqlu dövrü Naxçıvan, Siirt, Diyarbəkir şəhərlərinin XI-XII əsr dini memarlıq abidələrinin quruluş xüsusiyyətləri adı altında "Siirt Universitetinin" uyğun fakültələrində, eləcə də bir çox tədris ocaqlarında elmi seminarlar, diskussiyalar şəklində elmi-təcrübi olaraq dərslər aparmış, hər iki ölkənin təkcə memarlığında yox, eləcə də elm və yaradıcılığın digər sahələrindəki, əsrlərlə davam edən oxşarlıqları haqqında elmi fikirlərimiz, elmi yanaşmalarımız təcrübi olaraq göstərilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Memarlıq və İnşaat Universitetidir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi: giriş, üç fəsil, altı paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 13124; I Fəsil – 85226; 1.1. – 24768; 1.2. – 28428; II Fəsil – 97487; 2.1. – 32030; 2.2. – 44276; – 23895; III Fəsil – 97487; 3.1. – 23895; 3.2. – 29316; Nəticə – 5415 işarə olmaqla dissertasiyanın ümumi həcmi 201252 işarədən ibarətdir. Tədqiqatın məzmunu əhatə edən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır. Tədqiqatın məqsəd və vəzifələri, xranoloji sərhədləri müəyyənləşdirilir. Istifadə edilmiş nəzəri və metodoloji əsaslar nəzərdən keçirilir. Bu hissədə tədqiqatın elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, quruluşu və həcmi haqqında məlumat verilir.

**I Fəsil: Naxçıvan, Siirt və Diyarbəkir şəhərlərinin Səlcuqlu dövrünə aid dini memarlıq abidələrinin inkişaf tarixi istiqamətləri**" adlanan fəsil iki bölmədən ibarətdir.

**1.1 yarımparaqrafı „Naxçıvanın Səlcuqlu dövrünə aid memarlıq abidələri"** adlanan yarımbaşlıqda Naxçivan, Siirt, Diyarbakr şəhərlərinin XI-XII əsr dini memarlıq abidələrinin quruluş xüsusiyyətlərini açıqlayan dini memarlıq abıdələrinin qarşılıqlı xüsusiyyətləri göstərilir, hər bir tarixi inkişaf mərhələlərinin bədii xüsusiyyətlərinə də toxunulur. Maddi mədəniyyət abidələrinin dini –elmi bədiilikləri də vəhdətdə araşdırılır.Eyni zamanda Səlcuqlu dövründə Azərbaycan memarlığının vahid üslubu, bu dövrün əlverişli mədəni-tarixi durumu, əsrlərin zəngin bədii texniki üslubları və nəsildən-nəslə ötürülən təcrübələri saflaşdırılıb yerli memarlıq-bədii məktəbləri şəklində necə formalaşmasını göstərilir. Eyni zamanda Azərbaycanın Quzey ərazisində Səlcuqlu dövrü abidələrinin çox az hissəsinin dövrümüzə qədər gəlib-çatma səbəbini, bu dövrdə ən yüksək səviyyədə inşa edilmiş dini tikililərdən olan məscid, türbə və mədrəsələr üzərində tədqiqat işləri aparılmışdır.[1]

Azərbaycanın görkəmli memarlarından olan Ə.V.Salamzadə və K.M.Məmmədzadənin "Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri" adlı əsəri, Naxçıvan memarlıq abidələrinin gözəl xüsusiyyətlərini aşkarlayan əvəzsiz gözəl bir əsərdir. Əsərdə Yusif Küseyir oğlu, Möminə Xatun, Gülüstan, Qarabağlar türbələri haqqında əhatəli məlumat verilməklə, Bərdədəki Axsadan baba və Babı kimi Naxçıvan memarlıq məktəbi nümunələri də xüsusi yer

---

[1] K.M.Məmmədzadənin "Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri"

almışdır.Tədqiqatçılar, hətta XII əsri incəsənətin-memarlığın xüsusi bir inkişaf yolunda olduğunu da qeyd edirlər. Bu yol yerli xammaldan, usta-memarlardan, nəqqaşlardan istifadə etməklə öz möhtəşəmliyini yaratmış və bu dövrümüzə qədər də qoruyub saxlaya bilmişdir. Bədii sənətkarlıq ustaları oyma, həkketmə, xalçaçılıq və tətbiqi incəsənətin digər sahələrində çox işlər görmüşlər.

Bu gün elmi ədəbiyyatda Səlcuqlu dövrü məscidləri "Səlcuq köşkü", "Səlcuq günbəzli salonu" adları ilə tanınır. Bu məscid tipinin dövrün müsəlman dünyasının çox yerinə, o cümlədən Azərbaycana yayılması bu dövr dini tikililərin plan-məkan və konstruktiv həll baxımından doğrudan da köklü formalaşma prosesi keçirməsini əks etdirir.[2] "Naxçıvan, Siirt və Diyarbəkir şəhərlərinin Səlcuqlu dövrünə aid dini memarlıq abidələri" adlı I fəslin "Naxçıvanın Səlcuqlu dövrünə aid dini memarlıq abidələri" paraqrafında əsasən aşağıdakı məsələlərə diqqət yetirilmişdir:

- Səlcuqlu dövründə Azərbaycan memarlığının vahid üslubunu, bu dövrün əlverişli mədəni-tarixi durumunu, əsrlərin zəngin bədii texniki üslublarını və nəsildən-nəslə ötürülən təcrübələrini saflaşdırılıb yerli memarlıq-bədii məktəbləri şəklində necə formalaşması göstərilmişdi;
- Eyni zamanda Azərbaycanın Quzey ərazisində Səlcuq dövrü abidələrinin çox az hissəsinin qalma səbəbini, Səlcuqlu inşa edilmiş dini tikililər-məscidlər, türbələr, mədrəsələr və s., XI-XII əsr Naxçıvan və bu bölgələrə yaxın ərazilərdə qalmış memarlıq abidələrindən bir neçə nümunələrin üzərində araşdırmalar aparılmışdı;
- Səlcuqlu dövrü dini memarlıq abidələrindən daha cox Naxçıvan dini memarlıq abidələrindən nümunələr göstərməklə elmi araşdırma aparılmışdır. Araşdırılma zamanı əsasən XII əsrin görkəmli memarı Əcəmi Əbubəkr oğlunun əsərlərinə müraciət edilmişdi.

Bu dövr vahid Səlcuqlu dövrü memarlıq abidələrinin üslub

---

[2] Nəcəf Ə.N. Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından – XIV əsrə qədər / Ə.N.Nəcəf – Bakı: Qanun, - 2010. – 55 s.

xüsusiyyətləri də araşdırılmış və Azərbaycan ərazisində biri digərindən müəyyən xüsusiyyətləri ilə fərqlənən nümunələr verilmişdir.

**I.2 "Siirt və Diyarbəkrin Səlçuqlu dövrünə aid memarlıq abidələri"** adlandırılan yarımparaqrafda Türkiyənin Səlçuqlu dövrünə aid olan memarlıq abidələri, daha dəqiq Türkiyənin Siirt və Diyarbakırda bölgələrində olan dini tikililər, onların maraqlı-fərqləndirici xüsusiyyətlərini, memarlıq üslub və özəllikləri üzərində araşdırma aparılmışdır:Böyük Səlcuqlu memarlarlıq quruluşundan görünür ki, türk memarları da başqa ölkə memarları kimi daha çox bədii tərtibata üstünlük verirdilər. Bu da memarlıq sturukturuna birbaşa təsir edən və millətin mədəniyyətinin əsas göstəricisidir ki, Səlcuq dövrü memarları da bəzəmə-tərtibat amilinə xüsusi fikir verirdilər. Diyarbakr Ulu məscidinin inşa dövrü və onun haqqında önəmli məlumatlar, onun unikal işləməli kitabələri, memarlıq quruluşu, məscid memarlığına xas olan xüsusiyyətləri araşdırılır.

Böyük Səlcuqluların son dövrünə uyğun gələn Siirt Ulu məscidi, Anadolu Səlcuqlularının ilk dövrüni əhatə edir. Bu memarlıq nümunəsi özlüyündə memarlıqda tam bir keçid dövrünü meydana gətirməkdədir. Belə ki Anadolu Səlcuqlu dövrünün ən qədim memarlıq quruluşlarından biri də elə bu dövrdə meydana gəlmişdir. Dissertasiyanın bu yarımparaqrafında Səlcuqlu dövrünə aid dini təyinatlı Naxçıvan memarlıq abidələri, onun maraqlı və əvəzolunmaz memarlıq üslubu, Əcəmi sənətinin şah əsərləri, onların memarlıq tərtibatı və abidələrin səthlərindəki kitabələrə də diqqət yetirilmişdir. Səlcuqlu dövrü memarlıq abidələri zaman-zaman müxtəlif tədqiqatçılar tərəfindən araşdırılsa da, burada daha maraqlı bir istiqamətdən – yəni Türk, Azərbaycan memarlığının qarşılıqlı tikinti quruluş xüsusiyyətlərini, oxşar və fərqli cəhətlərini tədqiq edilmişdir. Demək olar ki, eyni üslub, eyni memarlıq forma, bir mənbədən qaynaqlanan memarlıq element və naxışları baxımından Türkiyə və Azərbaycan qardaş ölkə kimi ortaq əlaqələrə malikdir. Tarix boyu mövcud olmuş bu ortaqlıq Türkiyə-Azərbaycan ədəbi əlaqələri tarixində də müxtəlif dövrlərdə xeyli sayda əlamətdar faktlarla özünü təsdiq etmişdir.

Məlumdur ki, XI əsrdə Anadoluya daxil olan türklər, özlərinə xas olan xüsusiyyətlərini Anadoluya da daşımışlar. Belə ki, onlar Orta Asiyadan İrana və Azərbaycana daşıdıqları memarlıq formalarını Anadolu memarlığına da tətbiq etməyə başladılar. Bir hissəsi məskunlaşmış və bir hissəsi köçəri həyat sürən türklər daha çox çadırlardan istifadə etməyə üstünlük verirdilər. Hətta onlar mədəni irslərində qoruyub saxladıqları rəng koloritini və tərtibat sahələrində işlətdikləri naxışları belə, yaşadıqları çadırların üzərində əks etdirirdilər. Türklər məskunlaşdıqları hər yerdə özləri ilə daşıdıqları memarlıq mədəniyyətini, tikili xüsusiyyətlərini ilkin olaraq müvəqqəti yaşayış yerləri kimi quraşdırdıqları çadırdan ilhamlanaraq tətbiq edirdilər. Yaşayış yerlərində onlar öz dolğun memarlıq mədəniyyətinin üslublarını da əks etdirməyə çalışırdılar. Bunun ən gözəl nümunələri Siirt Ulu məscidinin günbəzlərində əks olunmaqdadır. Məscidin Səlcuqlu dövrü memarlıq quruluşundan görünür ki, türk memarları da başqa ölkə memarları kimi daha çox bədii tərtibata üstünlük verirdilər. Bu da memarlıq strukturuna birbaşa təsir edən və millətin mədəniyyətinin əsas göstəricisidir ki, Səlcuqlu dövrü memarları bəzəmə-tərtibat amilinə xüsusi fikir verirdilər.Siirt Ulu məscidi və onun minarəsi, ara-sıra zərər görmüş olsa da öz memarlıq xüsusiyyətini əhəmiyyətli ölçüdə qoruyaraq günümüzə qədər gətirə bilmişdir. İslam memarlığının əhəmiyyətli incilərindən olan bu minarə, Əməvilər dövründə ortaya çıxmış və daha sonra böyük dəyişikliyə uğrayaraq, memarlıq mədəniyyəti sahəsində fərqli formalar qazanmışdır. Siirt Ulu məscidinin minarəsi, Böyük Səlcuqlu minarələri kimi tamamilə kərpicdən tikilmişdir. Forma olaraq fərqli də olsa Siirt Ulu məscidi də bu tikinti ənənənin Anadoluya köçürüldüyü müşahidə edilməkdədir. Siirt Ulu məscidinin minarəsinin Qaraxanlılar, Atabəylər, Zəngilər bölgəsindəki bəzi minarələrlə forma, vəsait və ya bəzəmə baxımından ortaq kimi xüsusiyyətlərə sahib olduğu görülməkdədir. Bu məzmunda, müqayisə etməli olan Siirt Ulu məscidinin minarəsi, Orta Asiyadakı eyni tipli minarə formasını və memarlıq xüsusiyyətlərini özündə cəmləşdirir. Eyni zamanda Anadolu memarlığının bir nümunəsinə də çevrilmişdir.

Diyarbəkir Ulu məscidinin orta hissəsi Həzrət Musa zamanına

aid edilir. Məscidin üzərindəki kitabələr, həm bəzəmə məqsədli, həm də tarixi bir məlumat olmaları ilə tədqiqatçıların hər vaxt diqqətini çəkmişdir. Mütəxəssislərin araşdırmalarına istinadən qeyd etmək olar ki, məscidin səthində yerləşən kitabələr, inşa edildikləri dövrün, üzərilərində tikintinin sifarişçisinin, memarın və hətta ustaların da bir çoxlarının adları özlərində saxlamaqdadırlar.23,90 m. ölçülərində kufi xətlə, ərəbcə tək sətir halında yazılmışdır. Səlcuqlu dövründə Türkiyənin bir çox bölgələrində və eləcə də haqqında araşdırma apardığımız Diyarbəkirdə onlarla dini tikililər vardır. Bu fəsildə Diyarbəkir Ulu məscidi haqqında geniş məlumat verilsə də bir neçə məscid haqqında da qısa məlumat verilir.

**II Fəsil: Səlçuqlu dövrünə aid dini memarlıq abidələrinin üslub xüsusiyyətləri** adlanan fəsil iki yarımbölmədən ibarətdir.

**2.1. Səlcuqlu dövrü dini memarlığın üslub xüsusiyyətlərinin müqayisəli təhlili** adlanan yarımbölmədə “Məscidlər”, “Türbələr”, “Mədrəsələr”adı altında memarlıq hər bir bölgənin məscidlərindən, türbələrindən, sonra isə mədrəsələrinin memarlıq üslub və xüsusiyyətlərindən bəhs edilir. Bu dini tikililərin xüsusi özəllikləri, tikili xüsusiyyətləri, yəni hər iki ölkənin dini memarlıq tikililərinin oxşar və fərqli xüsusiyyətləri araşdırılır. Təbii ki, əgər Naxşıvan, Siirt və Diyarbakr bölgələrindəki məscid, türbə və mədrəsələri araşdırılırsa, hər üç bölgənin dini tikililəri eyni dərəcədə vurğulanır. Siirt və Diyarbakr bölgəsində Səlcuq dövrünə aid kifayət qədər material vardır. Lakin araşdırmalardan məlum olur ki, Naxçıvanda isə bu dövrə aid məscidlər çox azdır. Yəni Səlcuqlu memarlığı dövründə olan abidələrin təsnifatına nəzər saldıqda bu bölgədə Səlcuqlu dövrünə aid məscidlərin qalmadığının şahidi oluruq. Bütün bunlara baxmayaraq, araşdırılan dini tikililər baxımından Naxşıvan bölgəsində də kifayət qədər araşdırmalı türbələr, mədrəsələr və az da olsa məsçidlər də vardır. Səlcuqlu hakimiyyəti dövründə Nahçıvanın ictimai-iqtisadi və siyasi həyatında olduğu kimi, mədəni həyatında da böyük dəyişikliklər meydana gəlmişdir.

Yarımparaqrafda Azərbaycan memarlığında istifadə edilən tikinti materialı olan və bütün dövrlərdə çox az dəyişikliyə məruz qalan daş və kərpicin əhəmiyyətindən danışmaqla, bu tikinti

materiallarının memarlıq tikililərinin həm dekorativ və həm də konstruktiv olaraq işlənilməsi faktlarla göstərilməkdədir. Eyni zamanda bu araşdırma Səlcuq dövrü Naxçıvan və Yusif Küseyir oğlu türbələrinə Siirt və Diyarbəkir memarlığına istinadən aparılır.Tədqiqatçılar xüsusilə qeyd edirdilər ki, XI-XII yüzilliklərdə böyük konstruktiv – dekorativ imkanlara malik bişmiş kərpic başlıca tikinti materialı kimi istifadə edilirdi. Belə kərpiclər ustalara geniş imkan yaradırdı ki, onlar üzlük materialı kimi əsasən bu materiala müraciət etsinlər. Geniş bişmiş kərpic öz rənginə, atmosfer təzyiqinə dözümlülüyünə, ucuz başa gəlməsinə və nisbətən daha çox ərazidə yayılmasına görə istifadə edirdilər. Təbii ki, kərpic rənginə görə həm də tikilinin divarına boyakarlıq görkəmi də verirdi. Tikilinin baha başa gəlməməsinə, əhəngə qənaət edilməsinə, binanın tikilməsinin tez başa gəlməsinə isə üzərinə kaşı çəkilmiş kərpic, özündə memarlıq xüsusiyyətlərini də birləşdirirdi.

Əsaslı tərtibat işlərində, xüsusilə seçilən bədii daş yonma neçə vilayətlərinin tikintilərində yüksək texniki vasitə dərəcəsinə çatmış və binaların memarlıq tərtibatında istifadə edilirdi. Maraqlıdır ki, daş minarələrdə epiqrafik yazılı kitabələr eyvanaltı zolaqda işlədilirdi. Lakin kərpic minarələrdə epiqrafik yazılar divar səthlərində də qurulurdu. Bu baxımdan Naxçıvan memarlıq abidələri, səthindəki epiqrafik yazıları ilə seçilir. Dekorativ keramika ilə örtülmüş binaların fasadlarında isə epiqrafik yazılar müxtəlif ölçülərdə həkk olunurdu [3].

Azərbaycanda və Türkiyədə başqa sənət növləri kimi memarlıq sahəsində də oxşar cəhətlər, eyni tip abidələr çoxdur. Belə ki, İstanbul memarlıq tərzində tikilən Cənabi Əhməd Paşa məscidi, Fərhad Paşa məscidlərinin günbəzləri və tərtibatları Azərbaycan memarlıq abidələri ilə bənzəri vardır. Təbii ki, bu memarlıq tikililərindən özlərinin bəziləri hətta bizə qədər tam tikili olaraq yox olunduqdan sonra çatsalar da onlar haqqında tam söz demək mümkün olmur. Bəzən hər hansı bir detalla və ya bənzər abidələrə istinadən fikir yürütmək olur.Bu paraqrafda dini tikililərin səthini

---

[3] Münşi İ.T. Dünyanı bəzəyən Abbasın tarixi / İ.T.Münşi,Bakı: Şərq-Qərb, 2010. – 1144 s.

bəzəyən ornamentlər, kitabələrin də daşıdığı funksiyalar də araşdırıldı. Müqayisəli araşdırma, əslində dissertasiyanın ana xəttidir. Memarların, sənətkarların yaratdıqları müxtəlif sənət əsərlərinin əyani olaraq, tədqiq olunması aktual məsələ kimi gündəmə çıxarıldı. Səlcuqlu memarlığının üslub xüsusiyyətlərinin müqayisəli təhlili zamanı hər iki ölkənin memarlığını fərqləndirən konstruktiv və dekorativ xüsusiyyətləri xüsusilə vurğulanmışdır. Səlcuqlar dövründə və ya ondan əvvəlki dövrlərdə də Qədim Azərbaycan xalqının zəngin ədəbi-bədii, mədəni və dini irsi ilə Türkiyə incəsənətinə həsr olunmuş elmi, bədii, fəlsəfi olaraq İslam memarlıq tikililəri araşdırılmışdır. Belə dəyərli yanaşma, mədəniyyətin bir sahəsi kimi gözəlliyə, kamilliyə, əxlaqi saflığa xidmət edən İslam memarlığının yaranması və xalq tərəfindən sevilməsi, bəşəriyyətin ən dəyərli və qiymətli varlığı elm və inamdır deyimi kimi təsdiq edilmişdir. Azərbaycan və Türkiyənin, daha dəqiq desək, İki dövlət bir millət olaraq, iki qardaş ölkənin, yəni Azərbaycan tərəfdən Naxçıvan, Türkiyə tərəfdən isə Siirt və Diyarbəkir bölgələrinin məscidləri, onların kitabələri, plan, memarlıq tərz və üslub xüsusiyyətləri, oxşar tərtibat bəzəmələri təyinatı baxımından əhəmiyyətli bir mövqeyə malikdirlər. Həm Naxçıvan, həm də Diyarbəkirin İslam tarixi, mədəniyyəti və sənəti baxımından hər iki ölkənin gücünü yüksək səviyyədə göstərən məscidləri çox böyük məna daşımaqla bərabər, həm də böyük mənəviyyat qazanmış və bunu da digərlərinə bir örnək kimi ötürməkdədirlər.

**2.2. Səlcuqlu dövrünə aid məscidlər və onların üslub xüsusiyyətləri** adlanan yarımparaqrafda Səlcuqlu dövrünə aid dini memarlıq abidələrinin təsnifatı, onların quruluş xüsusiyyətləri, tərtibat işlərindəki ortaq cəhətlər Naxçıvan, Siirt və Diyarbəkir dini memarlıq abidələri üzərində araşdırılır. Qeyd edilir ki, İslam memarlığı, xüsusilə ilkin mərhələdə məscidlərlə əlaqədar inkişaf etsə də İslam sənəti öz təkamül dönəmində bütövlüyə və birliyə qovuşmağa meylli olmuşdur[4]. Memarlıq tikililərinin hər biri

---

[4] Baş G. Diyarbakır İslam Mimarisinde Süsleme // Doktora Tezi. Van: [n.y.], – 2005.

Səlcuqlu dövrünə aid edilməsinə baxmayaraq, əsas memarlıq xüsusiyyətləri baxımından elə Səlcuqlu dövrü özəlliklərini özündə bariz surətdə göstərir. Bu tikililərin səthindəki “Allah” sözünün yazılışı, bizdə bir yazı kimi yox, bu tərtibatın daşıdığı funksiyaya, mənaya görə böyük maraq yaradır. Elə bu baxımdan və sənətkarların elm-din arasındakı əlaqənin bu dərəcədə ürəkdən, bütün varlığını titrədən, qeyri-adi möhtəşəmliyi, hər şeyin yaradıcısı olan Böyük Yaradana bağlı olduğunu bildiklərindən və Rəbbimizə olan sevgilərini öz sənətləri ilə insanlara da aşılayırdılar. Bir çox hallarda çeşidli rəmzi mənalar daşıyan memarlıq tikililərinin bəzək yaradıcılığı, insanların həyat tərzi, adət-ənənələri ilə birbaşa bağlı olmuş və əsrlər boyu mürəkkəb inkişaf yolu keçərək memarlıq abidələri üzərində daha geniş tətbiq edilmişdir. Təbii memarlıq formalarını şərti və mücərrəd elementlər vasitəsilə əks etdirən naxışların da memarlıqda olan yeri və onların dərin məzmununu, əslində konkret və real mövzular təşkil edir.

Türk sənətində o zamana qədər tikilmiş olan möhkəm təməllər üzərində Anadoluda XII yüzilliklərdən başlayaraq hər tərəfdə memarlıq inciləri inşa edilməyə başlamışdır. Hətta Uyğurlar və Qaraxanlılar dövründən gələn və Böyük Səlcuqlu dövründə də davam edən memarlıq qübbə problemi, Anadolu türk memarlığında böyük monumental səviyyəyə qədər yüksəlmişdir. Bunu ən canlı olaraq məscid memarlığında görmək mümkündür. Anadoludakı məscidlərin ilki olan Diyarbəkir Ulu məscidi əslində illərdən bəri öyrənilməli olan bir memarlıq əsəri yox, Böyük Səlcuqlu əsəridir. Beləliklə, Türkiyə dini memarlıq abidələrini araşdırarkən ilk öncə insanı valeh edən Diyarbəkir məscidləri, onların konstruktiv və dekorativ görüntüləri göz önünə gəlir. Təbii ki, araşdırmanı da elə buradan başlamaq maraqlı və dəyərli olardı.

Diyarbəkir Ulu məscidi 1091-1092-ci illərdə çiçəklənən kufi xətti ilə yazılmış kitabəyə əsasən Sultan Məlikşahın adını daşıyır. Məlikşah, Diyarbəkirdə eyni planlı qübbə tikilisi olaraq daha sadə bir memarlıq əsəridir. 80 metrlik sahəyə malik olan bu məscid Məlikşahdan sonra müxtəlif dəyişikliklərlə uğrayaraq bugünkü halına gəlib çatmışdır. Məscidin önündə üstü yazılarla haşiyələnmiş dördbucaqlı həyət vardır. 1117-18-ci il tarixli kitabələrdə məscidin

üst yazılarında Məlikşahın oğlu Sultan Əbubu tərəfindən Məhəmmədin adı yazılmışdır. Kitabələrə diqqət yetirsək, çiçəklənən kufi yazılı kitabələrdəki bəzəklər tam olaraq orijinaldır. İkinci qatda isə naxışlı kəmərlərdən istifadə edilmişdir. Hətta, sonralar Diyarbəkir məscidi kompleksinə, digər dini tikililər də əlavə edilmişdir. Məscidin şimalından şərq tərəfə doğru olan hissəsində Ardıqlıların Məsudiyə mədrəsəsi adlandırdıqları dini dərslər almaq xüsusi yer də inşa edilmişdir. Mədrəsənin önündə sütunlu bir sırada isə1528-ci ildə Osmanlılar tərəfindən iki nefli Şafilər məscidi də inşa edilmişdir ki, sonralar bu məscidin bir çox hissəsi dağıntıya uğramışdır. Diyarbəkir Ulu məscidi önündəki həyəti də onun digər memarlıq kompleksinə daxil olmaqla möhtəşəm görünür. Bu vəhdət eyni zamanda Anadoluda olan oxşar məscidlərlə eynilik təşkil edir. Hətta hər iki məscid komplekslərinin memarlıq xüsusiyyətlərini özündə daşıyan məscid tikilisi üzərində müəyyən bir təsirə malik qara fonda olan minarə, türk tarixində o günə qədər görünməmiş bir vüsət almışdır. Əsil gözəllik isə qübbələrin planına daxil olan bənzərsizlikdir,ancaq digər türk məscid tikililərinin planlarından fərqli olaraq, Diyarbəkir Ulu məscidinin planı daha mükəmməldir.

Türk xalqlarının bədii xüsusiyyətləri, zövqləri, dərin düşüncələri belə, memarlıq sənətində daha açıq bir formada əks olunmuşdur. Çeşidli naxış kompozisiyaları ilə zəngin olan Azərbaycan və Türk memarlıq abidələrinin tədqiqatçılar tərəfindən dərin tədqiq olunmağa və öyrənilməyə böyük ehtiyacı vardır. Təbii ki, memarlıq tikililəri müxtəlif dövrlərdə, müxtəlif sahə üzrə araşdırılmışdır. İndi də bu ənənə davam etməkdədir. Hər kəs bu möhtəşəmliyi müxtəlif tərəfdən araşdırmağa çalışır. Bizim yanaşma metodumuz isə daha maraqlı bir elmi istiqamətdir. Qardaş ölkənin dini bir, dili bir, əqidəsi, inancı birdirsə, onda onların sənətkarlarının inşa etdikləri dini tikililərinin də oxşarlığı çox olacaqdır. Lakin nə qədər oxşarlıq olsa belə, fərqlilik də olmalıdır. Biz də müqayisəli yanaşma metodumuzla hər iki qardaş ölkənin bir neçə məscid, minarə və mədrəsələrinin, onların memarlıq xüsusiyyətlərini və tərtibatlarını, bəzəmələrini araşdırmaq niyyətindəyik. Belə ki, memarlıq abidələri və onların müxtəlif formalı səthləri və bu səthləri bəzəyən naxışlar hər vaxt tədqiqat

mövzusu olaraq memarlıq və sənətşünaslıq araşdırıcıları tərəfindən tədqiq olunur. Buna hər kəs öz təcrübəsi və təfəkkürü, bilik səviyyəsi ilə yaxınlaşa bilir.

Yarımparaqrafda araşdırma Türkiyənin Səlcuqlu dövrü və bu dövr tikilisini özünə örnək bilmiş bir çox dini tikililər, əsasən də Diyarbəkir türbə, məscid, minarə və mədrəsələrinin ornamental və ya konstruktiv, həm də dekorativ oxşar və fərqli cəhətlərini üzərində aparılır. Diyarbəkir məscidinin digər oxşar ornamental hissələrinin də bir neçəsini oxşar qurulma prinsipinə və daşıdıqları məram və məqsədə görə İslam bölgələrində naxışlar sistemi olmaqla yerli mədəniyyətlərdən qaynaqlanmışdır. Araşdırma Diyarbəkir Ulu məscidinin kitabələrindən, onun tərtibatının əsas elementlərindən fraqmentlər, sütunlarının gövdəsini bəzəyən tərtibatdan bir hissə, məscidin minbər qapısının ornamental görüntüsü və digər maraqlı məlumatlarla davam etdirilir. Səlcuqlu dövründə dini tikililərin Azərbaycanda da bu dövr Naxçıvan memarlıq əsərlərinə istinadən əhatəli araşdırma üçün XII əsr Əcəmi yaradıcılığına müraciət olunur. Çünki, Əcəmi yaradıcılığı nəinki XII əsr Azərbaycan memarlığının sanballı əsərlərinin əvəzolunmaz qurucusu, eyni zamanda da özündən əvvəl və özündən sonrakı memarlıq tarixinin yaradıcısı sayılır. Onun başçılığı altında inşa edilmiş dini memarlıq tikililəri və eləcə də bu kompleks siyahısına daxil edilən türbələri də daxil olmaqla, Səlcuq türbələrinin üzərində yüksək tərtibat işləri aparılmışdır. Əsasən həndəsi ornamentlər və onların qurulma prinsiplərindən istifadə edən dahi memar ornamentyaratmada, naxışqurma prinsiplərinin mahir bilicisi idi. Bunu onun memarlıq əsərləri təsdiqləyə bilir. Yəqin etmək olur ki, abidələrin üzərindəki təsvirlər daha çox ornamental olması, o dövr abidələrinin tikinti materialının xüsusiyyətlərinə əsaslanırdı. Belə ki, həndəsi fiqurları digər naxışlara nisbətən oymaq, cızmaq, yəni tikinti materialının üzərində işləmək nisbətən asan olurdu. Elm-din vəhdətini araşdıran alimlərin fikrinə istinadən, Böyük Allaha müqəddəs qanadlanır, mənəvi-ruhani dünyanın sirli-soraqlı, dərin qatlarını ehtiva edir[5].

[5] Kəlbizadə E. Şeyxlər başçısı Yusif Küseyir yaxud məzarı qibləyə olmayan şeyx // Şərq qapısı. – 2011.

Tarixi əsərlərdə qeyd edilir ki, Naxçıvan dini tikililəri Səlcuqlu hakimiyyəti dövründə meydana gəlmişdir. Harada məskunlaşmasından asılı olmayaraq, İslamı qəbul etmiş insanlar ilk əvvəl necə yaşamaq üçün sadə də olsa bir ev qururdularsa, eləcə də ibadət üçün mütləq bir uyğun yer seçər və oranı abadlaşdırmağa çalışardılar. Elə sanki bu sadə üsulla dini memarlıq tikilisinin o bölgədə təməlini qoymuş sayardılar. Həqiqətən də son dövrlərdə bu cür tikilinin daha sivil qaydada inşa edilməsinə baxmayaraq, ilk əvvəllər digər həyat hadisələri kimi dini memarlıq tikililərinin inşası da sadədən mürəkkəbə doğru, heç də hamar olmayan bir yol keçmişdir.

Araşdırmanı möhtəşəm memarlıq komplekslərindən biri də Siirt Ulu məscidi, bu məscidin minarəsində yerləşdirilmiş kitabədən də aydın olur ki, bu məscidin də Səlcuqlu dövrü ilə böyük əlaqəsi vardır. Zamanla bu məscidin daha da genişləndirmək məqsədi ilə daha əhatəli möhtəşəm planla sonuncu orijinal bir hala gətirmişlər. Türkiyənin Səlcuqlu dövrü abidələrindən olan memarlıq üslubu, xüsusiyyətləri və unikallığı ilə türk memarlığında özünəməxsusluğu ilə seçilən Siirt Ulu məscidinin aksonometrik görünüşünü, onun minarəsinin bərpadan əvvəl və sonrakı halını, planını və ornamental səthindən fraqmentləri də nəzərdən keçirilir.

Yarımparaqrafda Diyarbəkir Ulu məscidi, Siirt Ulu məscidi, Bitlis Ulu məscidi, Şafilər məscidi, Diyarbəkir Ulu məscidinin şərq girişinə yaxın yerdə yerləşən Sultan Sasa məscidləri, onların memarlıq xüsusiyyətləri, dekor tərtibatları araşdırılır. Eyni zamanda Səlcuqlu dövrü Naxçıvan dini memarlıq abidələrinin üslub xüsusiyyətləri, türk dini memarlıq tikililəri üçün də eynilik təşkil edən bir neçə memarlıq tikililərindən olan məscid, türbələr, mədrəsələr və s. də araşdırılır.

**III Fəsil: Səlcuqlu dövrünə aid türbə və mədrəsələrin quruluş xüsusiyyətləri a**dlanan fəsil iki yarımbölmədən ibarətdir.

**3.1. Səlcuqlu dövrünə aid türbələr və onların quruluş xüsusiyyətləri** yarımparaqrafında memarlıq tikililərin kompozisiya quruluşu, tərtibat işlərindəki ortaq cəhətləri, əsasən də əvvəlki fəsillərin bir növ yekunlaşdırıcı analiz və sintez aparılır. Səlcuqlu dövrü memarlıq xüsusiyyətlərini özündə əks etdirən məscidlərlə

bərabər türbələr də araşdırılır. Türbələr dini memarlıq tikililərinə daxil olmaqla insanların dini etiqadlarına, Yaradana inamlarına örnək olan bir tikilidir.

Tədqiqatçılara görə, qəbirlər üzərində tikilən türbələrin memarlıq quruluşu, türklərin köçəri mədəniyyətinə aid olan çadırların qurulma konstruksiyasından və formasından alındığını göstərir. Türklər yurd saldıqları torpaqları da, bu yurda olan hörmət və sədaqətlərini əlavə etməklə onu əbədiləşdirmək və qalıcı etmək üçün öz memarlıqlarında yeni bir forma meydana gətirmişlər. İlk zamanlar Naxçıvanda inşa edilən belə türbələrin tikintisində kərpicdən, Türkiyədə isə daşdan istifadə edilirdi. Əvvəllər yalnız türbələr kərpicdən inşa edildiyi halda, zaman keçdikcə mədrəsə və məscidlər də tikinti planına uyğun olaraq dekorativ hissələrində kərpicdən istifadə etməyə başladılar. Qeyd etmək olar ki, qəbir üstünə tikilən abidələr içərisində qülləvari türbələrin özünə məxsus yeri vardır. Tarixi-mədəniyyət abidələri içərisində, dövrünün şah əsərləri olaraq qəbul edilən xatirə tipli türbələr orta əsrlərdə, xüsusilə hökmdarların, şahzadələrin, sultanların, xanımlarının, analarının, elm adamlarının və dövlətə böyük xidmət göstərənlərin adlarını və ya onların xatirələrini əbədi yaşatmaq üçün tikərdilər. Xatirə tipi məzarüstü türbələrin tikilməsi Azərbaycan memarlıq tarixində Səlcuqlular dövründən başlayaraq daha da geniş bir əraziyə yayılmış və Orta Asiyada meydana gəlmiş qülləvari türbələr Naxçıvan memarlıq məktəbində tipoloji memarlığı zirvəsinə çatmışdır.

Naxçıvanda mövcud olan orta əsrlərə aid qəbirüstü türbələr arasında, öz kompozisiya quruluşuna görə fərqlilik göstərən, memar Əcəminin inşa etdiyi Yusif Küseyir oğlu türbəsi, gözəl memorial-xatirə abidələrindən biri kimi dissertasiya işində dekor xüsusiyyətləri və daşıdığı funksiyalar baxımından əsaslı olaraq araşdırılır. Naxçıvanın ən möhtəşəm memarlıq tikililərindən olan, memar Əcəmi yaradıcılığının "Şah əsəri" sayılan Möminə Xatunun şərəfinə tikilən eyniadlı qəbirüstü abidə də hər kəsdə böyük maraq doğurduğundan onun da araşdırılmasında qızıl bölgü prinsipi xüsusilə qeyd olunur. Qızıl bölgü həm də ilahi nisbət sisteminə daxil olan həndəsi ornamentlər kimi xarakterizə edilir. Göstərilir ki,

türbənin mürəkkəb kompozisiyası səthində ən kiçik boşluqları bitki bəzəmələri ilə tamamlanmışdır. Möminə Xatun türbəsinin giriş portalı üzərində müxtəlif ornament şərhi işlənməklə, xüsusi ayrılmış lövhə üzərində verilmişdir. Türbənin səthlərində ornament ünsürü çoxbucaqlı ulduzlardan qurulmuş ornamentlərdir.

Naxçıvan şəhərindəki möhtəşəm memorial-xatirə tikililərindən biri olan "İmamzadə" kompleksi də diqqət mərkəzində saxlanılır və oradakı qəbir daşları üzərindəki yazılara əsaslanaraq "İmamzadə" nin olduğu ərazinin qəbiristanlıq olduğu bilinməkdədir. Alim və tarixçi araşdırmaçılar kompleksin inşa tarixini XII-XVI əsrlərə aid olduğunu qeyd edirlər. Türbə Naxçıvanda XI-XII əsrdə türbə tikintisində çox məşhur olan bişmiş kərpic ilə inşa edilmişdir. Türbənin divarları yaxşı qalmasına baxmayaraq, bəzəkləri tamamilə aşınmış, yəni qalmamışdır.XI-XIII yüzillikdə Səlcuqlu dövrü abidələrinin üzərində, həm Azərbaycan, həm də Türkiyə memarlığında olan memarlıq xüsusiyyətləri aparıcı mövqe tutmuşdur. Bu paraqrafda Diyarbəkirdəki türbələr haqqında araşdırma apararkən, əsasən Diyarbəkir bir mədəniyyət mərkəzi kimi, onun müxtəlif unikal memarlıq tikililəri və onların əvəzolunmaz tərtibatları da tədqiq edilir. Bizi belə maraqlı bir tədqiqata sövq edən əsas amil, Diyarbəkir türbələri haqqında sənət tarixi baxımından günün ən araşdırılmalı olan bir məsələ olmasıdır. Yəni memarlıq komplekslərinin və əsasən də dini tikililərin araşdırılması hər kəs kimi məni də düşünməyə vadar etmişdir. Bu düşüncənin nəticəsi olaraq belə bir elmi işin araya-ərsəyə gəlməsi günün aktual problemlərindən olmaqla, azacıq da olsa bu problemlərin həllində bizim də payımızın olmağı çox əhəmiyyətlidir. Tədqiqat boyunca araşdırmalar zaman hətta çox az tədqiq edilən bir neçə türbələr də gündəmə gətirilmişdir. Adla bilinmələrinə baxmayaraq, indiyə qədər haqlarında əsaslı bir çalışma edilməmiş olan Konyada Ələəddin məscidinə bitişik Sultan II Qılınc Arslan türbəsi, Sultan Şücaəddin türbəsi, Süleyman şah türbəsi, Veysəl Qərani türbələrinin və Səlcuqlu dövrünün möhtəşəm Məlikşah, Səlcuqlu bürclərinin quruluş xüsusiyyətləri, onları memarlıq tərtibatlarının özəllikləri baxımından tədqiq edilmişdir.

Səlcuqlu dövrü Anadolu ərazisində araşdırma aparmağa

çalışdığımız dini memarlıq külliyəsinə daxil olan türbələr daşıdıqları funksiyalarına, quruluşlarına, tiplərinə görə, hətta məscid inşasından və bəlkə də daha önəmli olan digər tikililərlə bərabər olmuşlar. Digər dini tikili deyəndə buraya əsasən mədrəsələr, minarələr, kurqanlar və s. aid edilir[6] . XII əsr dini memarlıq tikililəri siyahısında maraqlı bürclər də vardır. Bu bölmədə səthinin çox gözəl və təkrarsız olan tərtibatına və Səlcuqlu dövrünün möhtəşəm bürclərindən olan iki bürc haqqında məlumata nəzər yetirək. Bu mənada ilk olaraq haqqında araşdırma apardığımız Səlcuqlu dövrü abidəsi olan və həm də səthindəki şir qabartma tərtibatına, kitabələrinin möhtəşəmliyinə görə daha seçilən Məlikşah bürcünü qeyd edə bilərik.

**3.2.“Səlcuqlu dövrünə aid mədrəsələr və onların quruluş xüsusiyyətləri**” adlanan yarımbölmədə Azərbaycan və Türkiyə memarlıq tikililərinin arasındakı fərqli və oxşar cəhətləri ilə bərabər, Səlcuqlu dövrü dini tikililərinin ayrılmaz hissəsi olan mədrəsələrin quruluş xüsusiyyətlərini, üslub və tikilmə qanunauyğunluqlarını da araşdırılır. Daha dəqiq dini dərslərin, o dövrdə tibbi və fəlsəfi təhsil almaq üçün inşa edilən memarlıq tikililərinin quruluşlarını, özəl xüsusiyyətlərini təhlil edilir.Anadolu Səlcuqlu dini komplekslərinin planlaşdırılmasında məscid və mədrəsə kimi dini və maarifləndirmə funksiyasını daşıyan tikililərin bitişik olaraq inşa edildiyi komplekslər və tibbi bilikləri almaq üçün insanların sağlamlığının qeydinə qalmaq kimi məsələlərin tətbiqində yararlı olan xidmətlərin aparıldığı mədrəsələrin tikintisində xüsusi bir məkanın seçilməsi məsələsi də nəzərdən keçirilir.Dini tikililərdən olan mədrəsələr Səlcuqlu dövrü memarlığında öz xüsusi memarlıq xüsusiyyətləri ilə tikili üslubu, tərtibatları ilə həm oxşar, həm də fərqlilikləri də vardır[7]. Diyarbəkir şəhəri, tarixən yarandığı bir dövrdən mərkəz şəhərlərdən olmuşdur və bu xüsusiyyətlərini və möhtəşəmliyini Səlcuqlu dövründə də qoruyub saxlamışdır dini təhsil tikililəri olan mədrəsə tikintisinə

[6] Əzəmətli Mömінə Xatun türbəsi: [Elektron resurs]/ URL:https://www.azens.az/az/news/z-m-tli-M-min-Xatun-türbəsi

[7] Sözen M. Diyarbakýr’da Türk Mimarisi / M.Sözen – İstanbul: [n.y.], – 1971. (-s.29-35).

böyük yer verilmiş və Səlcuq təhsil həyatında bu strukturlardakı fəaliyyətlə belə müəssisələr özlərinə xüsusi ad qazanmışdır. Nəinki Türkiyədə və eləcə də Azərbaycanın müxtəlif bölgələrində mədrəsələr inşa edilmiş və çox geniş surətdə istifadəyə verilmişdir ki, burada da böyük elm-din adamları müxtəlif fənləri əlaqəli olaraq tədris etmişlər, yəni böyük mənada maarifləndirmə işləri aparmışlar. Azərbaycanda orta əsrlərdən bəri uğurla fəaliyyət göstərən mədrəsə sistemi, Rusiyanın – Şimali Azərbaycanın işğalından sonra yeni elmi, dünyəvi tələbləri qarşılamaqda aciz qalırdı, ancaq varlı ailələrin qızları xüsusi ev dərsləri nəticəsində ibtidai təhsil almaq hüququna malik idilər. Nəticədə, mədrəsələrdən fərqli olaraq, dünyəvi dərslərə və xarici dillərə geniş yer verən yeni tipli "üsuli-cədid" məktəbləri açılmağa başladı[8]. Bütün ciddi-cəhdlərə baxmayaraq, mədrəsələr gizli də olsa öz maarifləndirmə işlərini davam etdirirdilər. Sadə və lakonik üsulla inşa edilmiş bu mədrəsələrin memarlıq tikilisinin möhtəşəmliyi və xüsusi üsulla tikilməsi hər kəsdə maraq oyatdığından belə tədris ocaqlarından istifadə etməyə başladılar. İstifadəsindən asılı olmayaraq, mədrəsə memarlığı Səlcuqlar dövrünün memarlıq prinsipini özündə qoruyub saxlaya bilmişdir.Türkiyə və Azərbaycanda da dövrümüzdə keçmişi özündə saxlaya bilən say etibarı ilə get-gedə dağıntılara məruz qalaraq olduqca azalan dini tədris strukturları, Səlcuq dövrü memarlığını və şəhərin xüsusi özəlliklərini əks etdirən mədəni mirasdır. "Dərs verilən yer" mənasını verən mədrəsələr, türklərin suverenlikləri altında olan İran, Suriya, Misir, Türküstan və Anadoluda inkişaf etdirdikləri, İslam hüququ və din məlumatlarının özəlliyi, ümumiyyətlə təhsil-öyrətim təşkilatlarıdır. Səlcuqlu dövründən sonra da inkişaf etmiş olan mədrəsələrin o dövrdən son zamanlara kimi öz əhəmiyyətli funksiyasını dəyişməmişdir. Mədrəsələr hətta çox da geniş həyəti olmayan, iki, üç ya da dörd sütunlu, ümumiyyətlə tək bir dərsxanası olan və şagirdlərinin yataqxana kimi də istifadə etdikləri strukturlardır. Səlcuqlu dönəmində mədrəsə əsasən ən sadə şəkliylə, günbəzli bir eyvan

---

[8] Əliyeva Z. Azərbaycan-Türkiyə ədəbi əlaqələri tarixinə bir nəzər // – Bakı: Türk dünyası: dünəni və bu günü, – 2011, 23-24 may.

tipində olan ana dərsxana ilə onun ətrafında olan üstü örtülü xüsusi şagird otaqlarından ibarətdir.

Anadolu Türk memarlığında əgər  XIV əsrdən əvvəl inkişaf etdirilən mədrəsə tipləri tətbiq olunmuşsa, Səlcuqlu dövründə isə memarlıq tikililərində günbəz forması istifadə edilməklə mədrəsə memarlığına böyük bir yenilik qatılmışdır. Diyarbəkirdə Səlcuq dövründən şəhərə bir neçə mədrəsə miras qalmışdır. Bunlardan, Anadolu Səlcuqlu memarlığının günümüzə qədər gəlib çatan ən əhəmiyyətli nümunələri arasında, Karatay mədrəsəsi, İncə minarəli mədrəsə, Ərzurumda Qoşa minarəli mədrəsə, Sivasda Göy mədrəsə, Buruciye mədrəsəsi və Qoşa Minarəli mədrəsə və digər memarlıq tikililərinin adlarını çəkmək olar.

Bu paraqraflarında iki qardaş ölkənin oxşar memarlıq qanunauyğunluqları araşdırarkən  dini memarlıq tikililərinin, komplekslərinin, məscid və minarələrinin, mədrəsələrinin oxşar xüsusiyyətləri çox olsa da bəzilərində cüzi də olsa fərqlər mövcuddur. Belə ki, bu fərqlər də yerli tikinti materiallarının, onları sifariş edən insanların fərqli düşüncələrinin və bəzən də inşa edilən məkanın coğrafi mövqeyinin fərqli olmasından irəli gəlir. Bütün bunlara baxmayaraq daha dəqiq Naxçıvan, Diyarbəkir və Siirt bölgələrinin dini memarlıq quruluşları hər kəsdə, elm adamlarında, səyyahlarda böyük maraq yaratdığından bizim də araşdırdığımız bu mövzu, hər zaman aktual olacaqdır. O da məlumdur ki, istər memarlıq tikililəri, istərsə də tikililərin bədii tərtibatları illər boyu müxtəlif tədqiqatçılar tərəfindən nə qədər araşdırılsa da, hər bir yeni araşdırıcı bu sahədə yeni bir söz, yeni bir maraqlı fikir söyləməklə gələcəyə keçmiş memarlıq prinsip və qaydaları haqqında dəyərli fikirlər-elmi mülahizələr ötürə biləcəklər.

## TƏDQİQATIN ƏSAS NƏTİCƏLƏRİ:

Kompleks şəklində aparılmış tədqiqatın sonunda dissertasiyada əsas nəticələr əldə edilmiş və təkliflər irəli sürülmüşdür:

1. Səlcuqlu dövründə Azərbaycan memarlığı istər abidələrin say çoxluğu və tip zənginliyinə, istərsə də üslub yetkinliyinə görə

əvvəlki dövr tikinti sənətindən xeyli fərqlənirdi. Məhz bu dövrdə islamın geniş vüsəti ilə əlaqədar dini sitayiş məqsədli tikililərin, xüsusilə məscidlərin özlərinə uyğun quruluşları formalaşmışdı;

2. Səlcuqlu dövrü Naxçıvan dini memarlıq abidələrinin üslub xüsusiyyətləri, türk dini memarlıq tikililəri üçün də eynilik təşkil edir;

3. Səlcuqlu dövründə Naxçıvanda inşa edilən türbələrin tikintisində kərpicdən, Türkiyədə isə daşdan istifadə edilirdi. Bunu da qeyd edək ki, əvvəllər yalnız türbələr kərpicdən inşa edilirdisə, zaman keçdikcə mədrəsə və məscidlər də tikinti planına uyğun olaraq dekorativ hissələrində kərpicdən istifadə etməyə başladılar;

4. Qəbirlər üzərində tikilən türbələrin memarlıq quruluşu, türklərin köçəri mədəniyyətinə aid olan çadırların qurulma konstruksiyasından və formasından alınmışdı;

5. Səlcuqlu dövrü abidələrinin üzərində, həm Azərbaycan, həm də Türkiyə memarlığında olan memarlıq xüsusiyyətləri aparıcı mövqe tutmuşdur. Memar Əcəmi türbələri üzərində olan son dərəcə mürəkkəb quruluşlu, müxtəlif növlü həndəsi ornamentlər, vahid harmoniya qanununa tabe olmaqla tam bir sistemdir. Hər hansı bir bütövlük bir neçə qrup birləşməsindən əmələ gəldiyi üçün həndəsi ornamentlərin quruluşu da müxtəlif mütənasibliyə malik sistemlər ilə müəyyən olunur;

6. İnşa edilən binaların tikinti tarixini, ustaların adlarını, ləqəblərini göstərən xırda yazılar əsasən portalların xonçalarında, medalyonlarında və başqa yerlərində də yerləşdirilirdi;

7. Səlcuqlu dövrü Anadolu ərazisində araşdırma aparmağa çalışdığımız dini memarlıq külliyəsinə daxil olan türbələdaşıdıqları unksiyalarına, quruluşlarına, tiplərinə görə, hətta məscid inşasından və bəlkə də daha önəmli olan digər tikililərlə (mədrəsə, minarə, kurqan və s.) bərabər olmuşlar;

8. Səlcuqlu dövrü memarlığı, Qaraxanlı ənənələri xüsusiyyətlərini özlərində daşıyan Səlcuqlu memarlığının ilk xüsusi memarlıq nümunələridir. Belə nümunələrin ən öndə olanlarından biri də mədrəsələrdir;

9. Səlcuqlu dövründə Türkiyənin iri şəhərlərində olduğu kimi Diyarbəkr şəhəri də inzibati, hərbi, iqtisadi və mədəni bir mərkəz

olması ilə bərabər, bir neçə təhsil strukturlarına – mədrəsələrə sahib idi;

10. Hər iki qardaş ölkənin dini memarlıq tikililərinin, komplekslərinin, məscid və minarələrinin, mədrəsələrinin oxşar xüsusiyyətləri olduğu kimi, fərqli xüsusiyyətləri də vardır. Belə ki, bu fərqlər də yerli tikinti materiallarının, onları sifariş edən insanların fərqli düşüncələrinin və bəzən də inşa edilən məkanın coğrafi mövqeyinin fərqli olmasından irəli gəlirdi;

11. İlk mədrəsələr məscid və məscidlərin yanında və ya içərisində tədris üçün ayrılmış xüsusi yerlər idi. Sonralar isə Səlcuq sultanları öz adlarına, eləcə də xanımlarının adına mədrəsələr tikdirdilər;

12. Açıq və ya qapalı həyəti olan Səlcuqlu dövrü mədrəsələrinin açıq həyətli tipi daha geniş yayılmışdı. Bunlara tək, qoşa, üçlü və dörd eyvan, həmçinin ikimərtəbəli eyvanlar daxildir. Bundan əlavə, həyət əvəzinə böyük günbəzlə örtülmüş mərkəzi yeri olan mədrəsələr ikinci bünövrə tipini təşkil edirdi.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU AŞAĞIDAKI MƏQALƏLƏRDƏ NƏŞR EDİLMİŞDİR:


1. Keskin Muhammed. Memarlıq tikililərinin epiqrafik quruluşlarının türk abidələri ilə eynilik dekoru. AzMİU. Elmi əsərlər. N 1. Bakı- 2014, s.23-28. detalları (ISSN-2222-5013)
2. Keskin Muhammed, Naci Ediİ. Selçuklu Dönemi Siirt Ulu camii bezemelerinin ahlat türbe mimarisinde etkisi. NDU. Elmi əsərlər N 1. Naxçıvan -2015, s. 205-208 (İSSN-2224-5529)
3. Keskin Muhammed. Azerbaycanda Selçuklu Dönemi Mimarisinin Karakteristik Özellikleri.”İrs miras”. Bakı- 2015. S. 22-25. (ISSN-2147-1487)
4. Keskin Muhammed. Orta çağ türk dini memarlıq tikililərinin üslub və xüsusiyyətlərinin müqayisəli təhlili. ADMİ universiteti. Elmi əsərlər N 20. 2015. s. 170-175. (ISNN-2221-7576)
5. Keskin Muhammed. Selçuklu Dönemi Nahçivanın Türbe Mimarisi. Naxçıvan və Doğu Anadolu abidələri uluslararası

sempozyumu. Nahçıvan-2015. s. 139-149 (ISBN-978-605-184-008-6).
6. Keskin Muhammed. Böyük Selçuk dövrü Azərbaycan və Türkiyə mədeniyyəti əlaqələri. ADMİU. "Mədəniyyət dünyası". Bakı.- 2015. s. 162-169. (İSSN-2221-7584)
7. Keskin Muhammed. Azərbaycan və Türkiyə memarlığının qarşılıqlı əlaqələri. AMEA. "Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitunun Elmi Əsərləri N 2. Bakı 2016. s. 438-445. (ISSN-2409-5257)
8. Кескин Мухаммед. Особые характеристики архитектуры сельджукского периода. МАРХИ. Архитектура и современные технологии. Россия.107.031. Москва-2016. 34/16-17
9. Naci Edi, Keskin Muhammed. Nahçivanda Selçuklu Mimarisinin İzleri. Uluslararası turk sanatı,tarihi ve folkloru konqresi. Bakı- 2017. s. 165-170. (İSBN-978-975-448-222-5)
10. Keskin Muhammed, R.Dadaşova. Selçuklu dönemine ait Azerbaycan ve Türkiye dini mimari. Uluslararası Kültür ve medeniyyet konqresi. Mardin- 2018. s. 687-695 (ISBN-978-6057923-84-4).
11. S.Hacıyeva, Keskin Muhammed.Sanat Eserleri Üzerindeki Tasvirler Türk İslam Kültürünun Örneği gibi. Atlas.Ukrayna-2019. s. 858-863. ( ISBN-2619-936X)
12. Keskin Muhammed. Türk Mimari Yapılarının Epik Yapılarının İle Ynı Dekorun Detayları NDÜ.Beynəlxalq elmi konfrans. Naxçıvan - 2019. s. 134-137.
13. M.Diğler, Keskin Muhammed. Mardin Artuklular Dönemi Mardin Ulu Cami Taş Bezeme Örnekleri. Uluslararası Mardin Artuklu Bilimsel Araştırmalar konqresi. Mardin -2020. s. 119-131. (ISBN-978-625-7954-36-5).
14. Keskin Muhammed, S.Hacıyeva, Türk İslam Medeniyetinde Nahçivan- Diyarbakır Dini Mimari Süslemeleri. Uluslararası Mardin artuklu bilimsel araştırmalar konqresi. Mardin -2020. s. 366-375. (ISBN-978-625-7954-36-5)






**Böyük Səlcuq imperiyası-Səlcuqlu dövlətinin gerbi (1038-1157)**





**Yusif Küseyir oğlu türbəsi. 1162. Naxçıvan; türbəsinin üzərindəki yazı nümunəsi**

## NAXÇIVAN, SIIRT, DİYARBAKIR ŞƏHƏRLƏRİNİN XI-XII ƏSR DİNİ MEMARLIQ ABİDƏLƏRİNİN QURULUŞ XÜSUSİYYƏTLƏRİ



**Mömünə Xatun türbəsi. 1186. Naxçıvan; türbənin yuxarı hissəsində yerləşən kitabəli friz və eksteryer bəzəklərinin qrafik təsviri. Rəsm: Q.Əliyevindir**



**Siirt Ulu məscidi. 1129; məscidin planı**



**Siirt Ulu məscidinin minarəsi: bərpadan əvvəl və sonra**



**Diyarbəkir Ulu məscidi. 1090; məscidin planı**



**Məscidin çiçəklənən kufi xətli kitabə qurşağı**



**Məsudiyə mədrəsəsi. Diyarbəkir.1198-1223; 1193/94-1223/24 illərdə**



**Məsudiyə mədrəsəsinin planı**

NAXÇIVAN, SIIRT, DİYARBAKIR ŞƏHƏRLƏRİNİN XI-XII ƏSR DİNİ MEMARLIQ ABİDƏLƏRİNİN QURULUŞ XÜSUSİYYƏTLƏRİ





**Zənciriyə mədrəsəsi. 1199. Diyarbəkir. Sırçalı mədrəsəsi-1243. Konya**

Dissertasiyanın müdafiəsi "12" 09 2023-ci il tarixində saat 14°° Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.29 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1073, Bakı şəhəri, A.Sultanova küç. 11, AzMİU, korpus 1, III mərtəbə, aud. 317.

Dissertasiya ilə AzMİU-nun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "22" iyun 2023-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: __.__.2023

Kağız formatı: A5

Həcm: 46023

Tiraj: 100